

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 179 (21.840)

22 sentyabr 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanın enerji təhlükəsizliyinin gücləndirilməsi prioritet istiqamətlərdəndir

***Ölkəmizin təbii coğrafi şəraiti və iqlim qurşaqları alternativ və bərpa olunan enerji mənbələrindən istifadəni hər zaman aktual məsələ kimi önə çıxarıb. Bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə 2004-cü ildən başlanılıb. Belə ki, həmin ildə qəbul olunmuş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu istiqamətdə mühüm strategiyanın həyata keçirilməsini şərtləndirib. Proqramda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, ilk növbədə, muxtar respublikada orta, kiçik, mikro su elektrik stansiyalarının tikilməsi daha məqsədəuyğundur.***



Ötən dövrdə bu sahədə ciddi addımlar atılmış, müxtəlif həcmli enerji istehsal edən obyektlər istifadəyə verilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qazla işləmə rejiminə keçirilmiş, ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Mövcud imkanlardan düzgün istifadənin nəticəsidir ki, həmin ildə, eyni zamanda Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ildə Ordubad rayonunda Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası, 2014-cü ildə Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, 2015-ci ildə Babək rayonunda 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Bütün bunlar muxtar respublikanın energetika sektorunda davamlı inkişafın təmin edilməsi istiqamətində görülən işlərin uğurlu nəticəsidir.

Muxtar respublikada enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Elektrik enerjisi ilə problem yoxdur. Hesab edirəm, gün gələcək ki, Naxçıvan bütün enerji tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək".***



Qeyd edək ki, muxtar respublikada son illərdə alternativ və bərpa olunan enerji mənbələri sırasında ən çox diqqətçəkən obyektlərdən biri Naxçıvan Günəş Elektrik Stansiyasıdır. Naxçıvan Muxtar Respublikasının yerləşdiyi cənub en dairələrində günəşli saatların orta illik kəmiyyətinin 2600-2800 saat təşkil etməsi belə layihələrin rentabelliyini daha da artırır. Bu sahədə həyata keçirilən tədbirlərin davamı kimi cari il sentyabrın 8-də muxtar respublikada 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Ötən il İsveçrənin "Pure Energy Development" SARL Şirkəti ilə bağlanmış müqaviləyə əsasən Naxçıvan Günəş Elektrik Stansiyasının ikinci ərazisində 1,3 meqavat, beşinci ərazisində isə 0,7 meqavat gücündə 7 min 700 ədəd şüşə-şüşə tipli günəş panelləri quraşdırılmışdır. Tikinti işləri aparılarkən stansiya ərazisində müvafiq inventarlar, transformatorlar, kommutasiya aparatları, 2 transformator yarımstansiyası da quraşdırılmış və digər tədbirlər həyata keçirilmişdir. Stansiyanın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Günəş Elektrik Stansiyası Naxçıvan Muxtar Respublikasının sərvətidir. Eyni zamanda bu gün istifadəyə verilən 2 meqavatlıq Günəş Elektrik Stansiyası muxtar respublikanın həyatında əlamətdar hadisədir. Çünki harada enerji varsa, orada həyat var, iqtisadi inkişaf var. Günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ucuz başa gəlir. Bu da muxtar respublikanın energetika sisteminə öz töhfəsini verəcək, Dövlət Energetika Xidmətinin gəlirləri artacaq, gələcəkdə yeni yarımstansiyalar qurulacaqdır".***

Vurğulayaq ki, 2015-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Günəş Elektrik Stansiyasında 2016-cı ildə 30 milyon kilovat-saat, 2017-ci ilin ötən dövründə isə 22 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunmuşdur. Yeni stansiyanın istifadəyə verilməsi ilə Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində istehsal ediləcək elektrik enerjisinin həcmi artırılaraq 33 milyon kilovat-saata çatdırılmışdır. Bu da muxtar respublikada elektrik enerjisinə olan tələbatın 8 faizinin Günəş Elektrik Stansiyası hesabına ödənilməsinə imkan verəcəkdir.

Bu gün dünya ölkələri içərisində alternativ və bərpa olunan elektrik stansiyalarında istehsal olunan enerjinin miqdarı ümumi istehsalın 50 faizdən çoxunu təşkil edən cəmi bir neçə ölkə mövcuddur. Hazırda isə muxtar respublikamızda günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi ümumi istehsalın 60 faizindən çoxunu təşkil edir. Amma bu da son hədd deyil. Həyata keçirilən davamlı tədbirlər nəticəsində yaxın gələcəkdə muxtar respublikada külək, istilik, həm də yerli hidroenerji potensialına əsaslanan elektrik enerjisi istehsalının həcmi daha da artacaq. Bu isə Naxçıvanın enerji təhlükəsizliyi sahəsində qarşıya qoyulmuş prioritet istiqamətlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***



Sentyabrın 20-də Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binası və "Şahbuz" yarımstansiyasının istifadəyə verilməsi də görülən işlərin davamı kimi qiymətləndirilməlidir. İki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində 35/10 kilovoltluq "Şahbuz" yarımstansiyasının idarəetmə otağı, 35 və 10 kilovoltluq qapalı paylayıcı quruluşlar, əməliyyat briqadası üçün otaqlar yerləşir. İkinci mərtəbə isə iş otaqları üçün nəzərdə tutulub. Yarımstansiyada hər birinin gücü 6,3 meqavolt-amper olan 2 ədəd yeni transformator, 3 idarəetmə paneli, 5 ədəd 35 kilovoltluq, 11 ədəd 10 kilovoltluq elektrik verilişi xətləri üçün eleqaz ayırıcı müasir hücrələr, eləcə də rele mühafizəsi və avtomatika qurğuları quraşdırılıb. İnzibati binanın damında ümumi gücü 13 kilovat olan 51 ədəd günəş paneli və şəbəkəyə birbaşa qoşulmuş 3 invertor quraşdırılmışdır. Bu da inzibati binanın elektrik enerjisi ilə etibarlı təminatına imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binasının və "Şahbuz" yarımstansiyasının istifadəyə verilməsi münasibətilə kollektivi və istifadəçiləri təbrik edərək demişdir: ***"Hər bir ölkənin iqtisadi gücünün əsas göstəricilərindən biri də onun enerji asılılığının olmamasıdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Azərbaycanda istehsal olunan elektrik enerjisi daxili tələbatı ödəməklə yanaşı, həm də qonşu ölkələrə satışı həyata keçirilir... Yeni elektrik stansiyalarının tikilməsi, elektroenergetika sisteminin müasirləşdirilməsi və enerji təhlükəsizliyinin təmin olunması ölkəmizin inkişafına xidmət edir. Çünki ölkəmizdə sənayenin, kənd təsərrüfatının və digər sahələrin inkişafı, əhalinin yaşayış səviyyəsinin yaxşılaşması və elektrik avadanlıqlarından istifadənin artması elektrik enerjisinə olan tələbatı da artırır. Muxtar respublikada da hər il artımla müşahidə olunur. Ona görə də yeni elektrik stansiyalarının tikilməsi, elektrik enerjisinin istehsalı və keyfiyyətlə ötürülməsi diqqətdə saxlanılır".***

Göründüyü kimi, enerji təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işlər, eyni zamanda iqtisadi inkişafın təzahürü kimi səciyyələndirilir. Bu isə müasir dövrdə bütün ölkələr üçün ən vacib amildir.

✍ **Səbuhi HƏSƏNOV**

***Naxçıvan şəhərinin, onun qəsəbə və kəndlərinin kompleks inkişafı ilə paralel aparılan istilik təchizatı tədbirlərinin yüksək sürət və keyfiyyətlə həyata keçirilməsi əhəmiyyətli nəticələrin əldə edilməsinə imkan verib.***

## İstiliklə təminata hazırlıq işləri diqqət mərkəzindədir

Son illərdə muxtar respublikada yeni elektrik stansiyalarının qurulması və enerji təhlükəsizliyinin təmin olunması, əhalinin ilboyu dayanıqlı təbii qaz, elektrik enerjisi və içməli suya olan tələbatının ödənilməsi, istilik sistemlərinin yenilənməsi, yaşayış məntəqələrində aparılan quruculuq işləri və yaradılan şərait payız-qış mövsümündə müşahidə olunan problemləri aradan qaldırıb. Bütün bunlara baxmayaraq, muxtar respublikanın iqlim şəraiti nəzərə alınaraq bu mövsümə hazırlıq tədbirləri hər il diqqətdə saxlanılır, mövcud infrastruktur daha da təkmilləşdirilir və müvafiq tədbirlər həyata keçirilir.

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, qarşıdan gələn payız-qış mövsümü ilə əlaqədar olaraq idarə tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu tədbirlər çərçivəsində mərkəzləşdirilmiş və fərdi qazanxanalarda əsaslı və cari təmir işlərinin aparılması davam etdirilib, istismara yararlı qazanlar ərpdən təmizlənib, ötən mövsümdə sıradan çıxan avadanlıqlar yeniləri ilə əvəzlənib. Beş ünvanda mərkəzləşdirilmiş qazanxananın xarici istilik xətti izolyasiya edilib, elektrik, qaz və su xətlərinə baxış keçirilib.

İdarədən verilən məlumatda o da bildirilib ki, cari ilin qış mövsümündə Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsi tərəfindən Heydər Əliyev prospektində 1, "Əlincə" məhəlləsində 2, Nizami və "İstiqlal" küçələrinin hər birində 3, "Çənlibel" məhəlləsində 2, Atatürk küçəsində 1 binanın daxili, "Əlincə" məhəlləsində 1 və "İstiqlal" küçəsində 1 binanın xarici istilik xətləri dəyişdirilib, bu xətlərdə izolyasiya işləri aparılıb. Bu da istilik enerjisinin payız-qış mövsümündə itkiyə getməsinin qarşısını əhəmiyyətli dərəcədə alacaqdır. Bundan başqa, 4 qazanxanada 1 ədəd 2 tonluq su çəni yenisi ilə əvəzlənib, 1 qazanxanaya əlavə istilik qazanı qoyulub, 2 fərdi qazanxanada istismar müddəti ötmüş qazanlar yenisi ilə əvəzlənib. Hazırda yaşayış binalarında daxili istilik xətlərinin dəyişdirilməsi davam etdirilir.

Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının istiliklə etibarlı təmin olunmasına hərtərəfli şərait yaradılıb. Noyabr ayının 1-dək bütün qazanxanalarda qış mövsümünə hazırlıq işləri başa çatdırılacaqdır.

Xatırladaq ki, bu mövsümdə də ötən illərdə olduğu kimi, 5 mərkəzləşdirilmiş, 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binası, eləcə də 7 min 634 mənzil və 30 inzibati bina fasiləsiz olaraq istiliklə təmin olunacaqdır.

Onu da qeyd edək ki, son illər yeni inşa olunan binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının istilik sistemlərinin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilib, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilib. Bu qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib ki, bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alıb, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərinin zədələnmədən aradan qaldırılmasına və müntəzəm nəzarət olunmasına əlverişli şərait yaradıb.

**Nail ƏSGƏROV**



# Naxçıvanın geoloji yataqları iqtisadi və strateji əhəmiyyəti ilə seçilir

## İndi bu sahənin inkişafı üçün hərtərəfli şərait yaradılıb

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı tarixi keçmişi, zəngin mədəniyyəti ilə yanaşı, həm də faydalı qazıntıları ilə zəngindir. Ulu Yaradan bu əsrarəngiz türk yurduna saysız-hesabsız nemətlər verib. Yerüstü zənginlikləri ilə seçilən bu torpağın altı da üstü kimi, necə deyərlər, "qızıldır". Naxçıvan Muxtar Respublikasının ərazisində yerin müxtəlif yaşlı geoloji qatlarının aydın çıxışları, təkrarolunmaz və cazibədar süxurların mövcudluğu geoloq və səyyahların diqqətini hələ XVIII əsrdən cəlb edib. Bu istər Qərbi Avropa, istərsə də Rusiya geoloji ədəbiyyatında Alp qurşağının statiqrafik məsələlərinin həllində öz əksini tapıb.***

Regionun geoloji baxımdan öyrənilməsinə isə ötən əsrin əvvəllərindən başlanılıb. Bu sahədə işlərə 30-cu illərdən start verilsə də, sistematik olaraq elmi tədqiqatların aparılması 1940-cı illərə təsadüf edir. Həmin dövrdən başlayaraq muxtar respublika ərazisinin zəngin faydalı qazıntıları haqqında elmi məqalələr hazırlanıb. Xüsusilə muxtar respublikanın geologiyasının kompleks öyrənilməsində Ş.Ə.Əzizbəyovun 1961-ci ildə çap etdirdiyi "Naxçıvan MSSR-in geologiyası" monoqrafiyasında ərazinin tektonikası, maqmatizmi, geomorfologiyası, geoloji inkişaf tarixi və faydalı qazıntıları haqqında müfəssəl zəruri məlumatlar verilib.

Muxtar respublika ərazisində ilk dəfə 1967-ci ildə Naxçıvan Geoloji Kəşfiyyat Ekspedisiyası yaradılıb. Ekspedisiyanın bazası Ordubad rayonunun Kələki kəndində yerləşib. Həmin qurum 2001-ci ildən Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Milli Geoloji Kəşfiyyat Xidmətinin tərkibində fəaliyyət göstərib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 2 oktyabr tarixli qərarı ilə Naxçıvan Geoloji Axtarış Ekspedisiyası Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturundan çıxardılıb Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyinə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 6 fevral tarixli Fərmanına əsasən Geoloji Axtarış Ekspedisiyasının bazasında Geoloji Axtarış və Kəşfiyyat İdarəsi yaradılıb, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil edilib, yeni Əsasnaməsi təsdiq olunub.

Adıçəkilən idarə ötən dövrdə muxtar respublika ərazisində bir sıra geoloji tədqiqatların aparılması işlərini həyata keçirib. Muxtar respublikada bütün sahələrə göstərilən dövlət qayğısı Geoloji Axtarış və Kəşfiyyat İdarəsindən də yan keçməyib. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə idarə üçün yeni istifadəyə verilmiş kompleksin açılış mərasimi olub. Bu strukturun fəaliyyəti ilə bağlı ətraflı məlumat almaq üçün həmin kompleksdə olduq.

Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni istifadəyə verilmiş kompleks Culfa şəhərində yerləşir. Buradakı inzibati binanın tikintisinə 2015-ci ildə başlanılıb. Kompleksə ikimərtəbəli əsas bina, birmərtəbəli Geologiya Muzeyi, Çöl tədqiqatları üçün kameral mərkəz, Geoloji Tədqiqatlar Mərkəzi, 30 nəfərlik yeməkxana, avtomaşınların saxlanması üçün örtülü dayanacaq və mexaniki təmir sexi daxildir. Buradakı əsas və köməkçi binalar bütün lazımi texniki avadanlıqlarla, müasir istilik sistemləri ilə təchiz olunub.

Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin rəisi Əli Vəliyev bildirir ki, idarənin əsas fəaliyyət funksiyası muxtar respublika ərazisində yer təkinin geoloji öyrənilməsi, faydalı qazıntı yataqlarının axtarışı, kəşfiyyatı, onların resurs və ehtiyatlarının hesablanması, seysmohidrogeodinamik şəraitin və digər təbii hadisələrin öyrənilməsi, ixtisaslaşdırılmış geoloji tədqiqatların aparılmasıdır. Ötən dövrdə bu istiqamətdə bir sıra işlər görülüb. Belə ki, Gal sahəsində kompleks filiz yataqlarının axtarışı, Xoşkeşin sahəsində səpinti qızıl üçün axtarış-qiymətləndirmə, Qaradərəsi sahəsində inşaat, Toydaş sahəsində isə mis-molibden yataqlarının axtarış-qiymətləndirmə işləri aparılıb. Hazırda Toydaş, Şurud və Ərəzin sahələrində layihə-smeta sənədlərinə müvafiq olaraq çöl geoloji işləri davam etdirilir.





Müsahibimiz sevinc hissi ilə qeyd edir ki, bu gün muxtar respublikamızda belə bir geoloji istehsalat bazasının yaradılması hər birimizi qürurlandırır. Kompleksdəki rahat iş otaqları, tərtibat bürosu, monitorinq, arxiv, geoloji partiyalar üçün hərtərəfli şəraitə malik kameral iş otaqları fəaliyyətimiz üçün lazımi şərait yaradır.

Məlumat üçün bildirək ki, kompleksdəki ikimərtəbəli inzibati binada 20 iş otağı, akt zalı, geoloji informasiya fondu, arxiv, treninq otağı vardır. Binadakı geoloji informasiya fondunda geoloji axtarış və kəşfiyyat işlərinin yerinə yetirilməsi haqqında məlumatlar toplusu saxlanılır. Hazırda fondda Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdindəki Ətraf Mühit və Təbii Sərvətlər üzrə Dövlət İnformasiya-Arxiv Fondundan gətirilmiş muxtar respublikanın geologiyasına aid 243 geoloji hesabat mövcuddur. Eyni zamanda fondda muxtar respublika ərazisində 1928-ci ildən başlayaraq aparılmış geoloji işlərin – Culfa su mənbələri, nadir elementlər, Urmus mis-molibden təzahürü, Darıdağ mərgümüşlü su bulaqları, Ordubad molibden və andaluzit yataqlarının nəticələrinə aid hesabatların surətləri saxlanılır. Çöl tədqiqatları üçün kameral mərkəz isə 4 axtarış və bir kəşfiyyat dəstəsi üçün nəzərdə tutulmuş xidməti otaqlardan ibarətdir. Burada mühəndis-texniki personalın işləməsi, çöl işləri zamanı yerinə yetirilmiş geoloji tədqiqatların kameral araşdırılması, layihə-smeta sənədlərinin və yekun geoloji hesabatların tərtibi və planlaşdırılması üçün lazımi şərait yaradılıb.

Geoloji Tədqiqatlar Mərkəzinin binası isə üyüdücü sex və 3 tədqiqat otağı olan laboratoriyadan ibarətdir. Üyüdücü sexdə 3 üyüdücü dəzgah və üyütmə prosesi üçün 2, laboratoriyada isə Almaniyanın ən qabaqcıl firmalarının istehsalı olan müasir laboratoriya avadanlıqları quraşdırılıb.

Burada Geologiya Muzeyinin yaradılmasında əsas məqsəd muxtar respublikanın mineral-xammal bazasını səciyyələndirən süxur, mineral və filiz nümunələrinin ümumi nümayişə təqdim edilməsi, geoloji-kəşfiyyat işlərinin nəticələrinin və elmi-geoloji nailiyyətlərin geniş miqyasda tanıdılması və təbliğindən ibarətdir. Muzeyin binasında eksponatların nümayişi zalı, onların saxlanılması, hazırlanması və muzey işçiləri üçün xidməti otaqlar yerləşir. Burada filiz və qeyri-filiz ehtiyatları bölməsi, muxtar respublikanın geologiya tarixi haqqında bölmə və Paleontologiya yarımbölməsi fəaliyyət göstərir. Hazırda fondda 700 eksponat mövcuddur. Həmçinin burada muxtar respublikanın geologiya və faydalı qazıntılar xəritələri ilə yanaşı, Naxçıvanın geologiyasının öyrənilməsində xüsusi fəaliyyətləri olan geoloq-alim və geoloq-kəşfiyyatçıların portretləri, bu sahəyə aid elmi ədəbiyyatlar da sərgilənir.

Əli Vəliyev qeyd edir ki, iqtisadi, strateji əhəmiyyətə malik olan bu sahənin inkişaf etdirilməsi, idarənin müasir texnologiya və avadanlıqlarla təchiz olunması gələcək uğurların təməlidir. Sonda müsahibimizdən hər birimiz üçün maraqlı olan "Naxçıvan hansı yeraltı sərvətlərə malikdir?" – sualını cavablandırmasını xahiş edirik. İdarə rəisi deyir:

– Naxçıvan Muxtar Respublikasının ərazisi çoxsaylı filiz və qeyri-filiz yataqlarına malikdir. Təbii sərvətlərinə molibden, mis, qızıl, sink, qurğuşun, sürmə-mərgümüş, civə, kobalt, volfram, titan, manqan, maqnezium, daşduz, dolomit, kükürd, travertin, müxtəlif bəzək daşları, mergel, mərmərləşmiş əhəngdaşları, seolit və mineral sular daxildir.

*Məncə, əlavə şərhə ehtiyac yoxdur. Tarixboyu fatehlərə, sərkərdələrə boyun əyməyən, yaşı və mədəniyyəti minilliklərə dayanan bu müqəddəs torpaq gələcəkdə də möcüzəli diyar olaraq xatırlanacaq.*

Səbuhi HƏSƏNOV

*Müasirləşən kəndlərimiz*

# Oğlanqala yenilik və inkişaf mərhələsindədir

***Doğma diyarımıza təbiət min bir çalar, naxış vurub, ona nadir rəssam fırçası ilə ülvi gözəlliklər bəxş edib. Bu gün qədim Naxçıvan, onun ən ucqar bölgələri belə, ayrı bir büsatdadır. Hər yer müasirlik donuna bürünüb. İllər öncə bu yurd yerinə yolu düşənlər indi Naxçıvana gələrkən buranı tanıya bilmirlər. Şərur rayonu da gözəlliyə qovuşan bölgələrimizdən biridir. Bu gün rayon mərkəzi ilə yanaşı, kənd yaşayış məntəqələri də tanınmaz dərəcədə dəyişib. Belə ünvanlardan biri də qədim tarixi olan Oğlanqala kəndidir. Ulu əcdadlarımızın yaratdığı qədim mədəniyyətin izlərini və zəngin tarixi özündə yaşadan Oğlanqala kəndi bu gün həm də müasir görkəmi ilə diqqəti çəkir.***



Bu ərazinin coğrafi cəhətdən əlverişli sahədə yerləşməsi, münbit və bərəkətli torpaqları, rəngarəng təbiəti ulu babalarımızın da diqqətindən yayınmayıb. Ona görə də eramızdan əvvəl II minilliyin sonu, I minilliyin əvvəllərində eyniadlı kəndin ərazisindəki Qaratəpə dağının ətəyində yurd salıb, yuva qurublar. "Oğlanqala" tarixi abidəsi bu gün də eyniadlı kəndin rəmzi sayılır. Qədimliyini özündə saxlayan bu yurd yerinə bu gün yolu düşən hər kəs buradakı yeniliyin, müasirliyin, inkişafın şahidi olur. Muxtar respublikamızda geniş vüsət alan tikinti-quruculuq tədbirləri bu yaşayış məntəqəsini də əhatə edib. Belə ki, 2016-cı il fevral ayının 15-də Oğlanqalada bir neçə sosial obyekt istifadəyə verilib.

Cəmiyyətin tərəqqisinə, mədəni-intellektual intibahına təsir göstərən ən qüdrətli vasitə elm və təhsildir. Muxtar respublikamızda təhsilin inkişafına göstərilən qayğıdan Oğlanqala kəndinə də pay düşüb. Kənddə yenidən qurulan üçmərtəbəli, 576 şagird yerlik məktəb binası müəllim və şagirdlərin istifadəsinə verilib. Burada 4-ü elektron lövhəli olmaqla, 32 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter otağı, şahmat və müəllimlər otaqları, 8 minə yaxın müxtəlif dərslik və bədii ədəbiyyat olan kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Məktəbin elektron tədris bazası da gücləndirilib, 38 kompüter internetə qoşulub, distant təhsilin tətbiqi üçün elektron lövhələrdə internetə çıxış imkanı yaradılıb.

Oğlanqaladakı yeni quruculuq ünvanlarından biri də sakinlərin rahatlığını və burada fəaliyyət göstərən qurumların işinin səmərəliliyini təmin edən kənd mərkəzidir. İkimərtəbəli binada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, mədəniyyət evi, 12 mindən artıq ədəbiyyatı olan kitabxana, polis və baytarlıq məntəqələri üçün otaqlar ayrılıb. Binada 74 yerlik iclas zalı var. Buradakı rabitə evində 384 nömrəlik yeni ATS və poçt şöbəsi yaradılıb.

Kənddə tikilən həkim ambulatoriyası sakinlərin sağlamlıqlarının qorunmasına və lazımi tibbi xidmətlə təmin olunmasına imkan verib. İki mərtəbədən ibarət ambulatoriya binası xəstəxana tiplidir. Səhiyyə məntəqəsi müasir tibbi avadanlıqlar və dərman vasitələri ilə təmin edilib.

Oğlanqaladakı yeni xidmət mərkəzi sakinlərin gündəlik tələbatının ödənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Burada bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir.

Kənddə aparılan quruculuq işləri zamanı 1,3 kilometr yola asfalt örtük salınıb, 4,2 kilometr məhəllələrarası yola çınqıl qatı verilib, yolboyu 11 su keçidi və 745 metr beton kanal tikilib, rabitə, elektrik və qaz xətləri təzələnib.

Bu günlərdə həmin yaşayış məntəqəsində olduq, sakinlərlə görüşdük. Onların ürək sözlərini eşitdik. Kənd adamları ilin yaxşı gəldiyini, bol məhsul yetişdiyini bildirdilər.

Arpaçayın sağ sahilində yerləşən yaşayış məntəqəsindəki 3 min 153 nəfər sakin 896 təsərrüfatda birləşib. Kənddə əkinçilik və heyvandarlıq əsas məşğuliyyət sahələridir. Ümumi ərazisi 650 hektar olan Oğlanqalada taxılçılığa maraq ildən-ilə artır. Arzu Abdullayev, Elşən Mirzəyev, Abdulla Cəfərov və başqaları bildirdilər ki, cari ilin məhsulu üçün ötən ilin payızında 108 hektar sahədə əkin keçirmiş taxılçıların zəhməti hədər getməyib. Artıq kənd adamları gələn ilin bol taxılının əsasını qoymaq üçün şum qaldırılması ilə məşğuldurlar. Onlar bu işi tezliklə başa çatdırmağa çalışırlar. Bunun üçün kənd adamlarının istifadəsində kifayət qədər texnika var. Ona görə də əmindirlər ki, payızlıq taxıl əkini kampaniyası uğurla başa çatacaq.

Sakinlər əkinçiliyin digər sahələrinə də üstünlük verirlər. Ötən il kənddə qarğıdalı, kartof əkini sahələrindən əldə edilən məhsuldarlıq yüksək olduğundan mülkiyyətçilər cari ildə də bu məhsulların yetişdirilməsinə önəm veriblər.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Oğlanqalada da bu sahələrin inkişafına xüsusi önəm verilir. Bunun nəticəsidir ki, sahələrdə bol tərəvəz məhsulları yetişdirilib. Torpaq mülkiyyətçiləri hasilə gətirdikləri məhsulları rayon mərkəzində və Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çıxarır və yaxşı gəlir əldə edirlər.

Qədim yaşayış məntəqəsi həm də dadlı-tamlı meyvələri ilə tanınır. Oğlanqalada son illər 3 hektaradək yeni meyvə bağları salınıb.

*Bu gün muxtar respublikamızın sosial-iqtisadi inkişafını bir kəndin timsalında açmağa çalışdıq. Təqdirəlayiq haldır ki, bu inkişaf ucqar dağ və sərhəd kəndlərini də əhatə edir. Bu yüksəliş, tərəqqi muxtar respublikamızda yaşayan insanları qırılmaz tellərlə doğma torpağa bağlayır.*

Elman MƏMMƏDOV

*Səhiyyə tarixindən*

# Tibbi təhsilin Naxçıvan modeli



***Qədim vaxtlarda, hər yerdə olduğu kimi, Naxçıvanda da həkimliklə, əsasən, tibbi savadı olmayan ara həkimləri, sınıqçılar, mamaçalar, dəlləklər, çöpçülər və başqaları məşğul olublar. Ara həkimləri daxili xəstəliklərin müalicəsi, sınıqçılar sınmış sümüklərin düzəldilməsi və çıxıqların salınması, mamaçalar doğuşun tutulması və ginekoloji xəstəliklərin müalicəsi, dəlləklər, əsasən, diş çəkməklə, qan buraxmaqla, irinlikləri kəsməklə, çöpçülər isə uşaqlardakı boğaz xəstəliklərinin müalicəsi ilə məşğul olmuşlar.***

1847-ci ildə çar hökuməti tərəfindən Zaqafqaziyada tibb işçilərinin ştatı haqqında qanun verilir. Bu qanuna əsasən hər qəzada bir həkim, iki feldşer və bir mama nəzərdə tutulur. Elə həmin ildən Naxçıvan qəzasında 1 həkim, 1 feldşer, 1 mama, Şərur qəzasında isə 1 həkim və 1 feldşer tərəfindən əhaliyə ixtisaslı tibbi xidmət göstərilməyə başlanmışdır.

Çar Rusiyasının Zaqafqaziya quberniyasında tibbi xidmətin təkmilləşdirilməsi məqsədilə 26 fevral 1880-ci il tarixli qanunundan 9 il sonra 1889-cu ildə Şərur qəzasının Baş Noraşen kəndində və bundan da 3 il sonra, 1892-ci ildə Naxçıvan qəzasının Cəhri kəndində, həmin dövrün daha mütərəqqi tibbi xidmət forması sayılan 4 çarpayılıq qəbul otağı yaradıldı.

8 mart 1904-cü ildə hökumət qanunu ilə Zaqafqaziyanın qəbul otaqları kənd sahə xəstəxanaları kimi yenidən təşkil olunmuş və çarpayıların sayı 4-dən 6-ya çatdırılmışdır. Naxçıvan şəhərində yaşayanlara tibbi xidmət göstərmək məqsədilə Cəhri kəndində fəaliyyət göstərən 6 çarpayılıq kənd sahə xəstəxanası 1905-ci ildə Naxçıvan şəhərinə köçürülür. Beləliklə, həmin ildə Azərbaycan üzrə fəaliyyət göstərən 16 kənd sahə xəstəxanasından 2-si Naxçıvanda – Naxçıvan şəhərində və Baş Noraşen kəndində fəaliyyət göstərmiş, 1908-ci ildə isə Çənnəb kəndində 6 çarpayılıq daha bir sahə xəstəxanası təşkil edilmişdir.

Naxçıvanda ilk yerli həkim Cəlil Məmmədquluzadənin şagirdi olan Hüseynqulu Səfiyev olmuşdur. O, 1909-cu ildə Moskva Dövlət Universitetinin Tibb fakültəsini bitirib Şərur qəzasında həkimlik fəaliyyətinə başlamış, Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra Təbrizə köçmüşdür.

1913-cü ildə Azərbaycan üzrə 8 şəhərdə, o cümlədən Naxçıvan şəhərində 12 çarpayılıq xəstəxana fəaliyyət göstərmişdir. Həmin il Naxçıvan ərazisində cəmi 5 həkim, 14 orta tibb işçisi çalışmışdır.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1920-ci ilin oktyabrında Naxçıvan İnqilab Komitəsinin dekreti ilə ilk Səhiyyə şöbəsi yaradılır və Əli Abbas oğlu Abbasov Səhiyyə Şöbəsinin müdiri təyin edilir. Bir neçə aydan sonra Səhiyyə şöbəsi Səhiyyə Komissarlığına çevrilir və Ə.Abbasov ilk səhiyyə komissarı təyin olunur.

1925-ci ildə Naxçıvan MSSR-də 24 tibb müəssisəsi fəaliyyət göstərmişdir ki, bu müəssisələrdə 14 həkim, 1 diş həkimi, 10 feldşer, 2 mama və 10 şəfqət bacısı çalışmışdır. 1925-ci ilin noyabrında Azərbaycan xalq səhiyyə komissarı Möhsün İsrafilbəyov (Qədirli) və Naxçıvan xalq səhiyyə komissarı Baba Qədimovun təşəbbüsü ilə Naxçıvan respublika həkimlərinin qurultayı çağırılır ki, bu, Naxçıvan tibb tarixində mühüm hadisə idi.

11 aprel 1926-cı ildə Naxçıvan həkimlərinin iştirakı ilə Azərbaycan həkimlərinin birinci qurultayı keçirilir. Burada tibbi xidmətin səviyyəsi ilə yanaşı, orta tibb işçilərinin sayca azlığı və peşəkarlıqlarının qənaətbəxş olmaması məsələsinə də toxunulur. Ona görə də 16 may 1928-ci ildə Naxçıvan Qadınlar Klubu nəzdində, klubun təlimatçısı İ.Bağırbəyov tərəfindən, B.Mahmudbəyovun rəhbərliyi altında ilk tibbi yardım dərnəyi təşkil edilir və bu dərnəyə 22 nəfər qadın yazılır.

1931-ci ildə Azərbaycan SSR Xalq Komissarları Şurasının "Orta tibb heyətinin hazırlanması haqqında" Qərarı əsasında Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığının səyi ilə 1931-ci il sentyabrın 5-də Naxçıvan Tibb Texnikumu yaradıldı və Cəfər Axundov məktəbin ilk direktoru təyin edildi. 1931-1932-ci illərdə Naxçıvan Tibb Texnikumu təhsil müddəti 4 il olan Feldşer şöbəsi ilə fəaliyyətə başlamış, 1933-1934-cü illərdə texnikumda əlavə olaraq 3 yeni şöbə açılmışdır. 1935-ci ildə Naxçıvan Tibb Texnikumunun ilk buraxılışı olmuş, elə həmin ildə texnikum Naxçıvan Tibb Məktəbi adlandırılmışdı.

Naxçıvan Tibb Məktəbini respublika əhalisinin sağlamlığı keşiyində duran minlərlə həmyerlimiz bitirmiş, onlar İkinci Dünya müharibəsi illərində və sonrakı dövrlərdə öz əməkləri ilə xalqın dərin hörmətini qazanmışlar. Bu məzunların içindən İsmayıl Məmmədov, Malikəjdər İbrahimov, Əbdüləli Tahirov, Cabbar Cəfərov, Yaqub Rzayev, Nəsib Nəbiyev, Kubra Cəfərova kimi alimlər və görkəmli həkimlər yetişmişdir.

1934-cü ildə respublikada çarpayıların sayı 1913-cü ilə nisbətən 10 dəfə, həkimlərin sayı 6 dəfə artaraq 32 nəfərə, orta tibb işçilərinin sayı isə 8,5 dəfə artaraq 110-a çatmışdır.

Müharibə illərində Naxçıvan MSSR-in həkim və tibb işçilərinin əksəriyyəti cəbhəyə getdiklərindən, arxa cəbhənin sanitar vəziyyətini yaxşı saxlamaq, muxtar respublikanın bütün ərazisində özünə və başqalarına ilk tibbi yardım göstərməyin əhaliyə öyrədilməsinə böyük əhəmiyyət verilirdi. Bununla əlaqədar olaraq 1942-ci ilin oktyabr ayında Naxçıvan MSSR Xalq Komissarları Soveti xüsusi qərar qəbul etmişdi. Bu qərarda göstərilirdi ki, Qırmızı Aypara Cəmiyyətinin proqramı həcmində respublikanın ərazisində yaşayan bütün yaşlı əhaliyə istehsalatdan ayrılmadan məcburi surətdə "Sanitariya müdafiəsinə hazıram" normaları üzrə hazırlıq keçilməlidir. Bu işin davamı olaraq 1944-cü ilin aprelində Naxçıvan MSSR Xalq Komissarları Soveti "Kolxoz tibb bacılarının hazırlanması haqqında" qərar qəbul etmişdi. Bununla əlaqədar olaraq Qırmızı Aypara Cəmiyyəti yanında təşkil edilən kursları 127 kolxoz tibb bacısı bitirmişdi.

Müharibə illərində Naxçıvan Tibb Məktəbi orta tibb işçiləri hazırlamaqda davam edirdi. Onların bir çoxu məktəbi qurtaran kimi könüllü olaraq cəbhəyə gedirdi. Məktəbdə 1941-1945-ci illərdə 153 feldşer, 20 mama, 90 tibb bacısı və 39 əczaçı hazırlanmışdır.

1946-cı ildə Naxçıvan MSSR Səhiyyə Komissarlığı Səhiyyə Nazirliyinə çevrildi və bu nazirlik müharibə illərindən sonra səhiyyə sistemində fundamental dəyişikliklərin əsasını qoydu. Muxtar respublikada onkoloji xidməti yaxşılaşdırmaq və onkoloji xəstəliklər haqqında əhalini maarifləndirmək məqsədilə Qırmızı Aypara Cəmiyyətinin 11 üzvündən ibarət fəallar hazırlanmış və onlara xərçəng xəstəliyi barədə 11 saatlıq dərs keçilmişdir.



1952-ci ildə Naxçıvan MSSR Səhiyyə Nazirliyinin nəzdində elmi-tibbi kitabxana fəaliyyət göstərməyə başlamış, bir il sonra həkimlərin sayı 1946-cı ildəkinə nisbətən 2,4 dəfə, orta tibb işçilərinin sayı isə 2,5 dəfə artmışdır. Səhiyyənin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, büdcəsi 1953-cü ildə 1946-cı ilə nisbətən 2 dəfə artırılmışdı.





SSRİ Nazirlər Sovetinin 1960-cı il 14 yanvar 58 nömrəli "SSRİ-də əhaliyə tibbi xidmət göstərilməsini və əhalinin cansağlığının qorunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" Qərarı ilə əlaqədar Naxçıvan şəhərində 1961-ci ildə respublika səhiyyə maarifi evində ikiillik sağlamlıq universiteti təşkil edilmişdir. Bu illərdə kənd yerlərindəki tələbatın çoxluğu nəzərə alınaraq Naxçıvan MSSR Nazirlər Sovetinin xüsusi qərarı ilə tibb məktəbinin Mamalıq şöbəsinə yalnız kənd yerlərindən tələbələr qəbul olunmağa başlanılmışdır.

Naxçıvan muxtariyyət tarixinin 1969-1987-ci illəri əhatə edən dirçəliş dövründə, bilavasitə ulu öndər Heydər Əliyevin qayğısı ilə Azərbaycan milli səhiyyə sistemi sürətlə inkişaf edərək, səhiyyəmizin misilsiz yüksəlişi, əsrlərə bərabər tərəqqisi təmin edilərək "Sağlamlığımızın qeydinə sağlam ikən qalaq" prinsipinin təntənəsi naminə respublikamızda sağlamlıq zonaları və istirahət evləri yaradılmasına, abadlaşdırılma işlərinin aparılmasına və mövcud səhiyyə ocaqlarının profilinin genişləndirilməsinə xüsusi əhəmiyyət verilmişdir.

1974-cü ilin oktyabr ayında Naxçıvan MSSR-in 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gəlmiş görkəmli dövlət xadimi Naxçıvan MSSR-in yeganə tibbi təhsil müəssisəsi olan Naxçıvan Tibb Məktəbində də olmuş və bu təhsil ocağının Naxçıvanda, eləcə də Azərbaycanda orta ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna rolunu qeyd etmişdir.

Müstəqillik dövrünün ilk illərində muxtar respublikanın həkimləri məlum çətinliklərə görə uzun müddət təkmilləşdirmə kurslarında iştirak edə bilməmişlər. Bunun ilə bağlı Azərbaycan Respublikası Səhiyyə Nazirliyi qarşısında məsələ qaldırılmış, 1998-1999-cu illərdə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professor-müəllim heyəti tərəfindən Naxçıvanda cərrahiyyə, terapiya, pediatriya, travmatologiya-ortopediya, infeksion xəstəliklər və laboratoriya işləri, burun-qulaq-boğaz, dəri-zöhrəvi xəstəlikləri üzrə çox yüksək səviyyədə səyyar kurslar təşkil olunmuşdur.

Ulu öndər Heydər Əliyevin xüsusi qayğısı sayəsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq fakültəsinin nəzdində Pediatriya ixtisasının yaradılması və 25 nəfərlik tələbə qəbulu Naxçıvan Muxtar Respublikasında tibbi təhsil sahəsində geniş üfüqlər açdı.

İxtisasın fəaliyyətə başladığı ilk illərdə Azərbaycan Tibb Universitetinin görkəmli alimlərindən akademiklər Əhliman Əmiraslanov və Adilə Namazova, professorlardan Çərkəz Cəfərov, Nadir İsmayılov, İbrahim İsayev, dosentlərdən Aydın Nağıyev, Ramin Rzayev, Zərifə Məmmədəliyeva və başqaları vaxtaşırı tələbələrə mühazirələr oxumuş, praktik dərslər keçmiş, tibbi kitabxanamızın dərsliklərlə təmin olunması məsələsində öz köməkliklərini göstərmiş, onları maraqlandıran sualları cavablandırmışlar.

Universitet Elmi Şurasının 2003-cü il 3 iyun tarixli qərarı ilə Pediatriya ixtisası Təbiətşünaslıq fakültəsinin tərkibindən ayrılmış və müstəqil Tibb fakültəsi yaradılmışdır. 2007-ci ildə fakültənin nəzdində Tibbi-profilaktika ixtisası açılmışdır. Bu sahədə aparılan islahatların nəticəsi olaraq 2011-ci ildən etibarən Pediatriya ixtisasına qəbul dayandırıldığından fakültənin nəzdində müalicə işi, sonrakı illərdə isə stomatologiya və əczaçılıq ixtisasları üzrə kadr hazırlığına başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublikamızda səhiyyə və tibbi təhsilin inkişafına göstərdiyi yüksək diqqət və qayğı sayəsində səhiyyə müəssisələrimiz Avropa standartlarına uyğun şəkildə yenidən qurularaq müasir avadanlıqlarla təchiz olunmuşdur ki, bu da yüksəkixtisaslı tibbi kadrların hazırlanması sahəsində atılan mühüm addımlardandır.

Tibb sahəsi üzrə yüksəkixtisaslı kadrlar hazırlamaq və dünya tibb elminə daha sıx inteqrasiya etmək üçün universitetimiz qonşu Türkiyə Respublikasının Van Yüzüncü Yıl, Elazığ Fırat, Ərzurum Atatürk, İzmit Koceli, Kayseri Ərciyes, Ərzincan, Qars Qafqaz, Ankara universitetləri və İran İslam Respublikasının Təbriz Universiteti ilə sıx əlaqələr qurmuşdur. Bu əlaqələrin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi sisteminin ixtisasartırma kurslarına gedən yüzlərlə həkim və orta tibb işçiləri ilə yanaşı, Naxçıvan Tibb Kollecinin və universitetin Tibb fakültəsinin tələbələri də yay istehsalat təcrübələrinin müəyyən hissəsini qeyd olunan universitetlərin klinikalarında keçirlər.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi məzunlarının Türkiyə Respublikası universitetlərinin klinikalarında internatura kursları keçmələri, tibbi təhsilin rezidentura mərhələsində və Türkiyədə ixtisasartırma kurslarında təhsillərini davam etdirmələri fakültəmizin uğurları sayıla bilər.

2012-ci ildən etibarən bu ali məktəbdə rezidenturanın fəaliyyətə başlaması muxtar respublikanın tibb təhsili tarixində olduqca əhəmiyyətli hadisə, yeni mərhələnin başlanğıcı deməkdir. Bu günə qədər ali məktəbin rezidentura pilləsinə 72 nəfər qəbul edilib və onlardan 9 nəfəri məzun olub. Bu il isə universitetimizdə 3 ixtisas üzrə 6 rezident yekun attestasiyaya buraxılacaqdır. 2017-2018-ci tədris ilində 13 ixtisas üzrə 22 nəfər universitetin rezidentura pilləsinə qəbul edilib. Bu rezidentlərin 9 nəfəri həmin ali təhsil müəssisəsinin Tibb fakültəsinin, 13 nəfəri isə Azərbaycan Tibb Universitetinin məzunlarıdır. Eyni zamanda bu tədris ilində fakültəmizin məzunlarından 9 nəfəri Azərbaycan Tibb Universitetində rezidenturaya, 2 nəfəri isə əczaçılıq ixtisası üzrə magistraturaya qəbul olunub. Builki qəbul imtahanının nəticələri ilə birlikdə hazırda 23 ixtisas üzrə 56 rezident təhsil alır.

Fərəhləndirici haldır ki, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində respublikamızın müxtəlif regionlarından gəlmiş tələbələrlə bərabər, Türkiyə Respublikası, İran İslam Respublikası və Nigeriya vətəndaşları da təhsil alırlar. Hazırda fakültəmizin məzunlarından üç nəfəri tibb üzrə fəlsəfə doktoru, ikisi dissertant, beşi baş həkim, üçü şöbə müdiri və yüzlərcə praktik həkim respublikamızın müxtəlif şəhər və rayonlarında əhalinin sağlamlığının keşiyində durur.

***Qadınlar Klubu nəzdində ilk tibbi yardım dərnəyi kimi fəaliyyətə başlayan tibbi təhsil qısa bir zaman kəsiyində təkmilləşərək sistem şəkli almış və tibbi təhsilin Naxçıvan modeli kimi tanınmışdır. Naxçıvan Muxtar Respublikası rəhbərinin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir ki, 50 illik yubileyini qeyd edən Naxçıvan Dövlət Universiteti dünya səhiyyə sisteminə inteqrasiya etmək yolunda öz sözünü deməkdədir.***

**İsa ABDULLAYEV**
*tibb üzrə elmlər doktoru, Əməkdar həkim,*
*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dosenti*

***Naxçıvan şəhərində dəvət olunduğum bir toy ziyafətində masabəyinin iştirakçılara təqdim etdiyi müğənni qısa bir vaxtda bütün məclisin diqqətini özünə cəlb edə bildi. Onun ifa etdiyi "Sarı gəlin" xalq mahnısında vurduğu zəngulələr özünəməxsusluğu ilə diqqət çəkirdi. Ziyafət iştirakçılarının da çoxlarının tanımadıqları bu vokalist kimdir? – deyə fikrimdən keçirdim. Bu an mahnı sona çatdı. Toya dəvətlilərin xahişi ilə o, daha bir neçə mahnı ifa etdi. "Küçələrə su səpmişəm", "Niyə gəlməz oldun" xalq mahnıları, Müslüm Maqomayevin "Mənim Azərbaycanım" mahnısı da alqışlarla qarşılandı. Onun Ukrayna Respublikasında, yaxınlarının isə Naxçıvan şəhərinin Qaraçuq kəndində yaşadığını bir qədər sonra öyrəndim. Jurnalist marağı məni ona yaxınlaşmağa, tanış olmağa sövq etdi...***

*Vətəndən uzaqlarda*

## Yaşamaq yanmaqdır, yanasan gərək



Qurban Abbasov 1952-ci ildə Naxçıvan şəhərinin Qaraçuq kəndində anadan olub. Naxçıvan şəhər 39 nömrəli dəmiryol məktəbini bitirib. Bir il Araz Su Elektrik Stansiyasında fəhlə işləyib. 1971-ci ildə Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrının xor qrupuna işə dəvət alıb. Həmin il Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunun rus bölməsinə daxil olub. Bu təhsil müəssisəsində görkəmli vokal ustası Pərixanım Behbudovadan dərs alıb. Bir il sonra xor qrupu Ukraynanın Vladimirsk, Kursk, Bryansk, Oryol şəhərlərində qastrol səfərlərində olub. Qurban Abbasov xor qrupunun tərkibində solist kimi öz istedadını göstərə bilib. Burada ona Qliyer adına Musiqi Texnikumunda təhsil almağı təklif ediblər. Razılaşıb. Ukraynanın Əməkdar artisti İvan İqnatyeviç Polivodanın sinfində oxuyub. 1978-ci ildə Ukrayna Dövlət Konservatoriyasına daxil olub. Paralel olaraq həm də rejissorluq kursunu bitirib. Ali məktəbi başa vurduqdan sonra Ukrayna Dövlət Opera və Balet Teatrına dəvət alıb. Konservatoriyada ona dərs deyən Ukraynanın Xalq artisti Vasili Yakovleviçlə çiyin-çiyinə çalışıb. Müəllimi ilə birgə işləmək onun bir sənətkar kimi formalaşmasında mühüm rol oynayıb. Teatrda onun birinci işi dünya şöhrətli bəstəkar Cüzeppe Verdinin "Traviata" operasında Alfredo rolu olub. Bu rolda həmyerlimiz öz səs diapazonu imkanlarını ortaya qoymağı bacarıb. Bir müddət müqavilə ilə Almaniyanın Veymar şəhərində fəaliyyət göstərən Musiqili Komediya Teatrında və oradakı sovet qoşunlarının hərbi ansamblının solisti kimi çalışıb.

1992-ci ildə Qurban Abbasov Kiyevə qayıdaraq Ukrayna sərhəd qoşunlarının mahnı və rəqs ansamblının solisti kimi 2012-ci ilədək bu ansamblda fəaliyyətini davam etdirib.

2005-ci ildə Ukrayna Respublikasının "Əməkdar artisti", 2009-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

***Haşiyə:*** Bu gün postsovet məkanında, dünyanın bir sıra ölkələrində azərbaycanlı adını və şərəfini uca tutan, Azərbaycan həqiqətlərini digər millətlərə çatdırmağı, elm, mədəniyyət və başqa sahələrdə çalışaraq ölkələrimiz arasında əlaqələr yaratmağı, milli və mənəvi dəyərlərimizi tanıtmağı özünün vətəndaşlıq borcuna çevirən yüzlərlə soydaşımız yaşayır. Təbii ki, onlarla fəxr edir, xalqımızın belə övladları ilə qürur hissi duyuruq. Qurban Abbasovla birsaatlıq söhbətimdə hiss etdim ki, müsahibim də onlardan biridir. Söhbət zamanı söylədiyi bir qənaətdə dərin səmimiyyət, böyük vətənpərvərlik duydum: xalq yolunda, millət yolunda gördüyün işdə təmənna duyursansa, o işi görmə... Heç bir şəhidimiz şəhid olmaq üçün özünü güllə qabağına atmayıb. Torpaqlarımızın bütövlüyü onu düşündürüb. Bu müqəddəs vəzifə onu şəhidliyə ucaldıb. Bu gün hansı sahədə çalışmasından asılı olmayaraq, hər bir azərbaycanlı bu hiss ilə yaşamalıdır ki, "Mən azərbaycanlıyam", – deməyə mənəvi haqqı çatsın. Vətəndən uzaqda olduğum 45 il ərzində, fəxr edirəm ki, belə azərbaycanlılarla işləmişəm.

Qurban müəllim deyir ki, Ukraynada yaratdığımız Azərbaycan Mədəniyyət Mərkəzi 1999-cu ildə Ukraynanın Opera və Balet Teatrında böyük konsert proqramı ilə çıxış etdi. Konsertdə xalqımızın ümummilli lideri Heydər Əliyev iştirak edirdi. Tədbirdə "Cəngi", "Yallı", "Naz eləmə", "Qoçaqlar" kimi mahnı və rəqslərimiz bizimlə yanaşı, ukraynalılar tərəfindən də ifa olundu və rəğbətlə qarşılandı. Mədəniyyət Mərkəzinin fəaliyyətini daha da gücləndirməyə başladıq. Dahi öndər konsertdən əvvəl keçirilən konfransda bizə qiymətli tövsiyələr verdi. Ümummilli liderin tövsiyəsi ilə mərkəzə xalqımızın sevimli sənətkarı, Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasında böyük xidmətləri olan SSRİ Xalq artisti Müslüm Maqomayevin adını verdik.

Qurban Abbasov həm də Ukrayna Sərhəd Qoşunlarının orkestrində fəaliyyət göstərir. Bu orkestrdə "Arşın mal alan" operettasından parçalar səhnələşdirilib. Səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Onun dediklərindən: Səhnədə səslənən hər bir mahnımız alqışlarla qarşılananda böyük qürur hissi keçirirəm ki, mədəniyyətimiz sərhədləri aşır, milli dəyərlərimizin tərkib hissəsi olan musiqi nümunələrimiz digər xalqlar tərəfindən də ifa olunur və sevilir. Bu gün onları qorumaq, qiymətli miras kimi gələcək nəsillərə ərməğan etmək təkcə bu sahədə çalışanların deyil, hər bir azərbaycanlının borcudur. Bir məsələni də deyim ki, biz uzaq Ukraynadan ölkəmizlə sıx əlaqə saxlamaqla fəaliyyət göstəririk. Mən özüm yaxınlarımı görmək üçün 2-3 ildən bir Naxçıvana gəlirəm. Qədim diyarda bir çox sahələrdə, o cümlədən mədəniyyətin, incəsənətin inkişafı istiqamətində görülən işlər məni çox sevindirir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı böyük əhəmiyyət daşıyır. Sərəncamda nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi milli dəyərlərimizin yaşadılmasında mühüm rol oynayır. 2012-ci ilin Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan olunması, son illərdə bir neçə festivalın keçirilməsi doğma diyarımızda ata-babalarımızdan bizə miras qalan dəyərlərimizə ehtiramın ifadəsidir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi məni bir azərbaycanlı kimi çox qürurlandırır. Bütün bunlar barədə Azərbaycan Mədəniyyət Mərkəzində təşkil etdiyimiz Azərbaycan məktəbində şagirdlərə ətraflı məlumat veririk. Onu da deyim ki, məktəb həftənin şənbə, bazar günləri fəaliyyət göstərir. Həmin məktəbdə Kiyevdə yaşayan azərbaycanlıların və dilimizə maraq göstərən digər millətlərin uşaqlarının təhsil almasına hərtərəfli şərait yaratmışıq. Respublikamızdan tez-tez Ukraynaya, bizim Mədəniyyət Mərkəzinə qonaqlar gəlir. Onlarla görüşlər təşkil edirik. Bu yaxınlarda Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Fərhad Bədəlbəyli qonağımız oldu.

Qurban müəllim həm də Kiyevdə fəaliyyət göstərən Azərbaycan diasporunun təmsilçilərindən biridir. Bu diasporun fəaliyyətində Azərbaycan Mədəniyyət Mərkəzi mühüm rol oynayır. Qeyd edək ki, Qurban Abbasov diaspor nümayəndəsi kimi Bakıda keçirilən dünya azərbaycanlılarının bütün qurultaylarında iştirak edib. O da qürurvericidir ki, onun bu sahədəki əməyi də yüksək qiymətləndirilib. 2005-ci ildə Qurban Abbasov Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb. O, bu mükafatı qazandığı bütün mükafatlardan üstün tutur. Söhbətimizin sonunda Qurban müəllimə bir sual da ünvanladım:

– *Bir neçə işin öhdəsindən gəlmək sizi yormurmu? Buna necə vaxt tapırsınız?*

Gülümsəyərək dedi:

– İnsan dünyaya bir dəfə gəlir. Bu "Gəlimli, gedimli, son ucu ölümlü dünya"da elə yaşamalısan ki, mənsub olduğun xalq üçün iz qoyasan. Bunun üçün ömrü fəda etməyə dəyər. Görkəmli şairimiz Bəxtiyar Vahabzadə yazırdı:

*Yaşamaq yanmaqdır, yanasan gərək,*  
*Həyatın mənası yalnız ondadır.*  
*Şam əgər yanmırsa, yaşamır demək,*  
*Onun yaşamağı yanmağındadır.*

**Muxtar MƏMMƏDOV**

*Yeni nəşrlər*

## Elektron kitabxanada üç yeni kitabın təqdimatı olub



AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağının şöbə müdiri, biologiya üzrə fəlsəfə doktoru Teyyub Paşayevin "Zəfəranın Naxçıvan Muxtar Respublikasında introduksiyası", həmin institutun direktor müavini, biologiya üzrə fəlsəfə doktoru İsmayıl Məmmədovun "Naxçıvan Muxtar Respublikası şəraitində ev quşlarının koksidiləri" və institutun böyük elmi işçisi, aqrar elmlər üzrə fəlsəfə doktoru Loğman Bayramov və Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmlər üzrə elmlər doktoru Varis Quliyevin həmmüəllifi olduğu "Naxçıvan Muxtar Respublikasında armud bitkisinin genofondu və bioloji xüsusiyyətləri" adlı monoqrafiyalarının təqdimat mərasimi keçirilib.

Bölmənin Elektron kitabxanasında keçirilən tədbirdə Varis Quliyev çıxış edərək həmmüəllifi olduğu monoqrafiyada armud sortlarının təsərrüfat-bioloji xüsusiyyətləri, artırılma üsulları, torpağın əkin üçün hazırlanması, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri, kimyəvi tərkibi, iqtisadi səmərəliliyi kimi məsələlərin öz əksini tapdığını deyib.

Alim "Naxçıvan Muxtar Respublikası şəraitində ev quşlarının koksidiləri" adlı nəşrdə ev quşlarında parazitlik edən koksidilərin növ tərkibi, biologiyası barədə məlumatların, "Zəfəranın Naxçıvan Muxtar Respublikasında introduksiyası" adlı kitabda isə əkin zəfəranının iqlimləşdirilməsi ilə əlaqədar aparılan elmi tədqiqatların nəticələrinin əks olunduğunu bildirib.

Sonra Bioresurslar İnstitutunun Torpaq ehtiyatları laboratoriyasının rəhbəri, aqrar elmlər üzrə fəlsəfə doktoru Sahib Hacıyev, biologiya üzrə fəlsəfə doktorları – həmin institutun elmi katibi Ənvər İbrahimov, Biokimyəvi tədqiqatlar laboratoriyasının rəhbəri Ramiz Ələkbərov, Bitki sistematikası şöbəsinin böyük elmi işçisi Seyfəli Qəhrəmanov, Zooloji tədqiqatlar şöbəsinin müdiri Akif Bayramov və həmin şöbənin böyük elmi işçisi Mahir Məhərrəmov çıxış edərək nəşrlərlə bağlı elmi qənaətlərini diqqətə çatdırıblar.

***AMEA Naxçıvan Bölməsinin***
***İnformasiya şöbəsi***

***Əfsanələrə görə, şaftalı "Sehrli meyvə" olmaqla uzunömürlülük simvoludur. Şaftalı şirəsi ürək ritminin pozulması, qanazlığı, qarın xəstəlikləri zamanı qəbul olunur. Dərini qidalandırır və onun hüceyrələrinin yeniləşməsinə kömək edir.***

*Yurdumuzun nemətləri*

## Həm dadlı, həm də faydalı meyvə



Şaftalının müxtəlif sortlarının ilk dəfə yetişdirildiyi Çində bu meyvəyə uzunömürlülük və sağlamlıq rəmzi kimi baxırlar. Şaftalı dərimizi qırışlardan qoruyan, ürəyimizi möhkəmləndirən, bədxassəli şişlərin əmələ gəlməsinin qarşısını alan əla antioksidantdır. Onun tərkibindəki C vitamini orqanizmi virus və infeksiyalardan qoruyur, A vitamini itigörmə qabiliyyəti, gözlərin və selikli qişaların sağlamlığı üçün lazımdır, dəmir dərinin rəngini saflaşdırır, hemoqlobini yüksəldir, kalium ürək əzələlərini və damarların divarlarını möhkəmləndirir. Şaftalı arıqlamaq üçün də əla vasitədir. Bir şaftalıda cəmi 50 kilokalori enerji olsa da, o uzun müddət toxluq hissi yaradır. Nahardan sonra da əla desert sayılır. Bu dadlı meyvə həm də əhvalı yaxşılaşdırır, yuxusuzluğu, depressiyanı aradan qaldırır. Zəngin B qrupu vitaminlərinin yuxunu normallaşdırır, stresin öhdəsindən gəlməyə kömək edir. Şaftalının özünəməxsus ətri var. Bu meyvənin iki çeşidi daha çox tanınır: ağımtıl şaftalı daha şirin, sarımtıl şaftalı isə daha ətirli olur.

Şərur digər meyvələri ilə yanaşı, həm də şaftalısı – yerlilərin dili ilə desək, şələlisi ilə məşhurdur. Rayonda şaftalı ən çox Aşağı Daşarx, Danyeri, Yuxarı Daşarx, Oğuz, Xanlıqlar, Zeyvə, Düdəngə, Siyaqut kəndlərində yetişdirilir.

Hazırda rayonun şaftalı bağlarında növbəti meyvə yığımını həyata keçirən bağbanlar məhsulun bol olmasından razıdırlar. Yuxarı Daşarx kənd sakini, sahibkar İbrahim Əlizadə şaftalının digər meyvələrlə müqayisədə daha çox qulluq tələb etdiyini bildirir. Bol məhsul əldə etmək üçün ağaclara ilboyu qulluq lazımdır. Ağacların gövdəətrafı vaxtaşırı yumşaldılmalı, lazımi minerallar uyğun miqdarda verilməli, dərmanlama vaxtında aparılmalıdır. Bir sözlə, bu meyvənin nazını çəkməlisən ki, barını-bəhərini də görəsən. Ataların bağa baxarsan bağ olar, baxmazsansa dağ olar məsəli hər zaman özünü doğruldur. İbrahim kişi 20 ildən çoxdur, şaftalı əkib-becərir, hər il də bol məhsul əldə edir. Bağlarında daha məhsuldar və tələbat çox olan şaftalı növlərini artırır. Meyvəni, əsasən, yerli bazarlarda satır. Deyir ki, rayonumuzda şaftalının 50-dən çox növü becərilir. Bəzən tezyetişən şaftalı növləri çiçək açanda qeyri-sabit hava şəraitindən tozlanma prosesi pozulur. Bu il isə hava şəraiti bağbanların ürəyincə olub.

İbrahim Əlizadə Yuxarı Daşarx kənd tam orta məktəbində tarix müəllimi işləyir. Torpağa bağlı zəhmət adamı bizimlə söhbətində onu da bildirdi ki, 3 hektar sahədə əkdiyi 2 minə yaxın ting artıq bar verib. Əkilən tinglərin növlərinə gəlincə, "zəfəran" üstünlük təşkil edir.

Bu gün muxtar respublikamızda aqrar sektorun inkişafı üçün hərtərəfli şərait yaradılıb. Şərur rayonunun bağbanları da bundan istifadə edərək yeni-yeni bağlar salırlar. Rayonun Daşarx kəndində də biz bunun bir daha şahidi olduq. Həmin bağlar içərisində şaftalı bağları üstünlük təşkil edir.

**Ramiyyə ƏKBƏROVA**


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 757